**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ÜLVİNƏ FAZİL QIZI FƏRZƏLİYEVA**

# AZƏRBAYCAN PUBLİSİSTİKASINDA MİLLİ ÖZÜNÜDƏRK PROBLEMLƏRİ (1900-1920-CI ILLƏR)

**5720.01 – Jurnalistika**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2017**

Dissertasiya Bakı Dövlət Universiteti Mətbuat tarixi və ideoloji iş metodları kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər :** **Şamil Qiyas oğlu VƏLİYEV**
*filologiya üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər:** **Nəsir Abbas oğlu ƏHMƏDLİ**
*filologiya üzrə elmlər doktoru, professor*

**Ülviyyə Bəzim qızı ABDULLAYEVA**
*filologiya üzrə fəlsəfə doktoru*

**Aparıcı müəssisə:** **Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsi**

Müdafiə «_28__» __04_____ 2017-ci il saat «____»-da Bakı Dövlət Universiteti nəzdində filologiya üzrə elmlər doktoru və fəlsəfə doktoru dissertasiyaların müdafiəsini keçirən D.02.181 Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan: AZ-1148, Bakı, Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, əsas bina, II mərtəbə, Videokonfrans otağı.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «___» _______ 2017-ci ildə göndərilmişdir.

**D.02.181 Dissertasiya şurasının elmi katibi, filologiya üzrə elmlər doktoru, professor:** **T.H.HÜSEYNOV**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Mahiyyətinə görə insanla, onun düşüncə tərzi ilə bağlı olan özünüdərk anlayışının fəlsəfi problem kimi qoyuluşu qədim yunan filosofu Sokratın "özünü dərk et" sözlərini həyat devizinə çevirdiyi dövrə gedib çıxır. Nəyisə dərk etmək, konkret hadisəni və predmeti öyrənmək üçün ona kənardan baxmaq, subyektiv hiss və emosiyalardan kənarlaşmaq lazımdır. Mürəkkəb proses sayılan özünüdərk zamanı insan öz «mən»ini ətrafdakı insanlara, mühitə - «qeyri mən»ə qarşı qoyaraq çoxcəhətli hadisələri müşahidə edir, müqayisə vasitəsilə onlarla özü arasında ümumi və fərqli cəhətləri aydınlaşdırır, təbiətdə və cəmiyyətdə öz yerini müəyyənləşdirir.

Özünüdərk fəlsəfi problem kimi təkcə insan fərdiyyətinə deyil, həm də cəmiyyəti təşkil edən ictimai zümrələrə, siniflərə, qruplara, daha geniş anlamda isə xalqlara, millətlərə aid edilir. Bu mənada milli özünüdərk başqa xalqlarla müqayisədə millətin özünü, öz tarixi köklərini, orijinallığını anlaması, ümumi maraq və ideallarını dərk etməsi əsasında özünü tanıması, bəşər tarixində, eyni zamanda müasir tarixdə xalqlar arasında tutduğu yeri və gələcək inkişaf yollarını müəyyən etməsinin göstəricisidir. Hər bir xalqın milli azadlıq hissi, müstəqillik meyli onun özünüdərketməsi prosesində formalaşır, həqiqi məna və aydın yönüm kəsb edir. «Millətin elmi-fəlsəfi özünüdərk konsepsiyası isə bütün millətin deyil, milli intellektin səfərbər olunması sayəsində, milli filosoflar, ziyalılar, ictimai-siyasi liderlər tərəfindən işlənib hazırlanaraq, geniş kütlələrin sərəncamına verilir. Lakin elmi fəlsəfi dildə yox, elmi-kütləvi, fəlsəfi publisistik, poetik dildə, ədəbiyyatın, sənətin, mətbuatın mümkün imkanlarından istifadə etməklə»[1].

Millət özünüdərk səviyyəsinə qalxa bilmədikdə, ayrı-ayrı böyük şəxsiyyətlərin məfkurəsində yaşayan milli ruhun geniş ictimaiyyətə ötürülməsi və ictimai şüurda qərarlaşması mümkün olmayanda onun faciəsi qaçılmazdır. Mühüm tarixi faktdır ki, XIX əsrin sonu - XX əsrin əvvəllərində yaşayıb-yaratmış Azərbaycan ziyalılarının usanmadan fəaliyyəti nəticəsində xalqımızda Vətən idealı formalaşmış, onların sayəsində millətimiz faciədən qurtulmuşdur. Onlar xalqda milli özünüdərk hisslərini formalaşdırmağı, Azərbaycanı Vətənə çevirməyi bacarmışdır. F.e.d., professor Ş.Vəliyevin təbirincə desək, «…XX əsrin əvvəlləri bir

---

[1] Xəlilov S. Şərq və Qərb. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 2004, s.87.

sıra yeni keyfiyyət göstəriciləri ilə fərqlənir və bu dövr müddət etibarı ilə qısa olsa da, mahiyyətinə görə intibah səciyyəsi daşıyır»[2].

Həmin dövrdə publisistika nəinki intibah dövrünü yaşamış, eyni zamanda xalqın milli özünüdərkində təkanverici qüvvə rolunu oynamışdır. Göründüyü kimi, bir sıra millətlərdə milli-fəlsəfi fikrin nəzəriyyə halında üzə çıxmaması onun tamamilə yoxluğu demək deyil. Milli özünüdərk məqamları ədəbi-bədii, publisistik fikir vasitəsilə də yüksək səviyyədə ifadə edilə bilir. Bu baxımdan, Azərbaycan xalqının milli özünüdərkində və inkişafında ədəbi-bədii, publisistik əsərlərin həmişə böyük rolu olmuş, publisistik düşüncə bir təfəkkür tərzi kimi rasional elmi düşüncəni üstələmişdir. Xalqımızın milli-fəlsəfi fikri çox zaman öz əksini elmi traktatlar və monoqrafiyalarda deyil, bədii ədəbiyyatda, mətbuatda, publisistik əsərlərdə tapmışdır. Ona görə fəlsəfi təfəkkürə gedən yol əsasən ədəbiyyatdan, publisistikadan keçmişdir.

XX əsrin əvvəllərində yazıb-yaradan mütəfəkkirlərimiz - H.Zərdabi, Ə.Hüseynzadə, C.Məmmədquluzadə, M.Hadi, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə, Ü.Hacıbəyov, Ö.F.Nemanzadə, M.Ə.Sabir, M.B.Məhəmmədzadə və başqaları yaradıcılıqları, publisistik əsərləri vasitəsilə xalqa öz soy-kökünü, milli kimliyini tanıtmağa, onun milli mədəniyyətini, ədəbiyyatını və dilini inkişaf etdirməyə çalışmışdır. Azərbaycan klassik publisistləri həmin dövrdə demokratik meyilləri gücləndirmək, xalqı maarifləndirmək, onları öz hüquqları uğrunda mübarizəyə səsləmək, milli özünüdərki təbliğ etmək üçün publisistikanın gücündən yetərincə istifadə etmişdir.

Heç şübhəsiz, keçilmiş yolun öyrənilməsi, tarixə, keçmiş mədəni-mənəvi, mətbu irsə münasibət ictimai elmlər üçün həmişə xüsusi aktuallıq kəsb etmişdir. Ölkəmiz ikinci dəfə müstəqillik qazandıqdan sonra isə Azərbaycan elmi bu sahədə uzun zaman hökm sürmüş ideoloji-metodoloji yanaşmalardan tədricən xilas olmuş, milli mənlik şüurunun oyanışı ilə əlaqədar tarixi, ədəbi-mədəni, publisistik irsin qaynaqlarına yeni, daha sərbəst baxış formalaşmağa başlamışdır. Azərbaycan publisistlərinin XIX əsrin sonu - XX əsrin əvvəllərində ictimai fikrin fəallaşmasına səbəb olan, xalqın milli özünüdərkində və özünütəsdiqində mühüm rol oynayan irsinin, milli mətbuatda dərc edilmiş əsərlərinin araşdırılması zərurətə çevrilmişdir. Professor Ş.Hüseynov bu zərurəti nəzərə alaraq yazır: «Tarixi keçmişimizi, kökümüzü dəqiq və dürüst öyrənməyin ən mötəbər mənbələrindən biri – zamanın kollektiv yaddaşı hesab edilən mətbuatdır.

---

[2] Vəliyev Ş. Füyuzat ədəbi məktəbi. Ankara: Ejdat, 2000, s.3.

Çoxillik mətbu irsimiz bu vaxta qədər üstüörtülü saxlanılan, təhrif edilən, saxtalaşdırılan bir çox mətləblərin gün işığına, həqiqət və aşkarlıq meydanına çıxarılması, tariximizin «ağ ləkələrinin» aradan qaldırılması üçün zəngin mənbə, qiymətli və əvəzsiz məxəzdir. Ümid edirik ki, tarixçilərimiz, xüsusilə mətbuat tarixi ilə məşğul olan alim və jurnalistlərimiz, bütövlükdə Azərbaycan tarixi mütəxəssisləri və maraqlıları bu sahədə yaxından əməkdaşlıq edəcəklər»[3].

Milli tariximizin və ədəbiyyatımızın bir çox mərhələləri, şəxsiyyətləri, ədəbi hərəkatları ilə yanaşı XX əsrin əvvəllərinin publisistik irsi də uzun illər ideoloji yanaşmanın obyektinə çevrilmiş, onun həqiqi mahiyyəti və mənzərəsi düzgün dəyərləndirilməmiş və kölgədə qalmışdır. Həmin dövrdə cərəyan edən ədəbi-mədəni hərəkat məzmun və tərkibcə çox mürəkkəb olduğundan dövrün görkəmli şəxsiyyətlərinin yaradıcılığı ilə bağlı araşdırmalarda marksist-leninçi metodologiyanın tələbləri rəhbər tutulmuşdur. İmperiya ideoloji mövqeyindən qiymətləndirmə milli özünüdərk ideyalarını ehtiva edən publisistik əsərlərin mahiyyətinin kölgədə qalması, milli ruhlu əsərlərin oxucuya təqdim olunmaması, ya da səthi şəkildə, qərəzli yanaşma ilə təqdim edilməsi ilə nəticələnmişdir. Sovet dövründə bolşevik və inqilabi–demokratik mətbuat nisbətən əhatəli öyrənilsə də, ötən əsrin iki onilliyində nəşr olunan «Həyat», «İrşad», «Füyuzat», «Tazə həyat», «Tərəqqi», «Həqiqət», «İqbal», «Şəlalə», «Açıq söz», «Dirilik» «Azərbaycan» və s. mətbuat orqanları lazımınca tədqiq edilməmişdir. Buna səbəb isə XX əsrin əvvələrində xalqın milli özünüdərkində publisistikanın aparıcı qüvvə olması, milli hərəkatın mətbuatla əlaqədə inkişaf etməsi idi. Ona görə də dövrün ziyalılarının mövqeyini doğru-düzgün qiymətləndirmək və tariximizin, publisistikamızın ideoloji mübarizələr şəraitindəki mürəkkəb inkişaf yolunu milli özünüdərk nöqteyi-nəzərindən ətraflı öyrənmək üçün həmin mətbuat orqanlarının fəaliyyətinin dürüst elmi tədqiqatı çox vacibdir və xüsusi aktuallıq kəsb edir. Seçilmiş mövzunun aktuallığını şərtləndirən mühüm amillərdən biri də milli kimlik məsələsinin bu gün də cəmiyyətdə müzakirə, mübahisə predmeti kimi qalması və bu məsələdə yekdil rəyin olmamasıdır. Ölkəmizin müstəqil olduğu hazırkı şəraitdə dünyada baş verən mürəkkəb siyasi proseslər kontekstində də milli özünüdərk probleminin araşdırılması, milli özünüdərk təcrübəsinin öyrənilməsi önəmlidir.

**Tədqiqatın obyekti və predmeti.** Araşdırma ilk növbədə XX əsrin əvvəllərində nəşr olunmuş Azərbaycan mətbuatı örnəkləri əsasında

[3] Hüseynov Ş. Milli haqq və ədalət axtarışında. Bakı: Adiloğlu, 2004, s.23.

aparılmışdır. Bir-birinin ardınca işıq üzü görən qəzet və jurnallarda dərc edilən saysız-hesabsız publisistik əsərlərə istinad olunmuşdur. Dissertasiyanın əsas araşdırma obyektini 1900-1920-ci illərdə Azərbaycan ziyalılarının «Həyat», «İrşad», «Molla Nəsrəddin», «Füyuzat», «Tərəqqi», «İqbal», «Açıq söz», «Bəsirət», «Kaspi», «Dirilik», «Azərbaycan» və s. bu kimi qəzet və jurnallarda çap olunmuş milli şüurun inkişafına, milli özünüdərk probleminə dair publisistik əsərləri təşkil etmişdir. Tədqiqat işində dövrün görkəmli qələm sahiblərinə məxsus ideya və konsepsiyalar dissertasiyanın mövzusuna müvafiq şəkildə araşdırılmış, mətbuat orqanlarında dərc edilmiş publisistik məqalələr əsas təhlil predmetinə çevrilmişdir.

Təbii ki, bu dövrə aid zəngin mətbu irsi bütövlükdə əhatə etmək mümkün deyil. Ona görə də dissertasiyanın mövzusu ilə bağlı ən səciyyəvi, xarakterik nümunələrə xüsusi diqqət yetirilmişdir.

Elmi işin hazırlanmasında əsas mənbə kimi dövrün ictimai-siyasi xadimlərinin publisistik irsi ilə yanaşı, onların irsini müxtəlif aspektlərdən araşdıran tədqiqatçıların əsərlərindən istifadə olunmuşdur.

Tədqiqatın predmeti isə 1900-1920-ci illərdə Azərbaycan publisistikasında milli özünüdərk problemidir.

**Mövzunun elmi araşdırılma səviyyəsi.** Sovet dövründə Azərbaycan ictimai-siyasi və fəlsəfi fikir tarixində milli özünüdərk və milli mənlik şüurunun inkişafı probleminə siyasi-ideoloji təzyiq nəticəsində ümumilikdə biganə münasibət bəslənilsə də, XX əsrin əvvəllərində yaşamış bir sıra mütəfəkkirlərimizin əsərlərinin nəşri, dünyagörüşlərinin öyrənilməsi sahəsində xeyli işlər görülmüşdür. Ancaq, təəssüf ki, həmin dövrün tədqiqatlarında hakim marksist-leninçi metodologiyanın tələblərinə uyğun olaraq, onların ictimai-siyasi və fəlsəfi dünyagörüşündə əsasən ateist və materialist baxışları əks etdirən ünsürlər axtarılmış, xalqın milli özünüdərkini, milli şüurunun oyanmasını, milli azadlıq hərəkatını təqdir edən söz və fikir sahiblərinə, görkəmli ictimai-siyasi xadimlərimizə millətçi və ya burjua ideoloqları damğası vurulmuşdur. Bolşevik mətbuatı geniş araşdırmalara cəlb olunsa da, milli demokratik mətbuat elmi tədqiqatlardan kənarda qalmışdır. Sovet dövrünün tələblərinə uyğun yazılan yüzlərlə tədqiqat əsərlərində isə reallıqdan uzaq məqamlar yer almışdır. Məsələn, satirik mətbuatımızın görkəmli tədqiqatçısı N.Axundov yazır: «…Qeyd etmək lazımdır ki, Müsavat ağalığı illərində «Şeypur» (1918-1919) və «Zənbur» (1919) kimi əksinqilabi mahiyyət daşıyan, burjua-mülkədar hökmdarlığını müdafiə edən «gülgü» jurnalları da

olmuşdur ki, onlar barədə müfəssəl danışmağı məqsədəuyğun bilmədik»[4]. Halbuki alimin haqqında yazmağı məqsədəuyğun bilmədiyi bu jurnallar Azərbaycan Cümhuriyyəti ideyalarının təbliğində önəmli rol oynamış və satirik mətbuat tariximizdə özünəməxsus dəsti-xətti ilə seçilmişdir.

Tədqiqatçı alim F.Hüseynov isə «Həyat» və «Füyuzat» mətbu orqanları haqqında fikirlərini belə ifadə edir: «… «Həyat» və «Füyuzat» hakim sinfin, milli burjuaziyanın mənafeyini təmsil və müdafiə edirdi. …Bakının neft milyonçularına sədaqət göstərən, mətbuatda mühafizəkar mövqe tutub, mənsub olduğu istismarçı burjua sinfinin ideoloqu kimi tanınan bir qrup ziyalı yetişmişdir. Ə.Topçubaşov, Ə.Hüseynzadə və Ə.Ağaoğlu belə ziyalılardan idi»[5]. Təəssüf ki, bu cür nümunələr həddən artıq çoxdur.

XX əsrin əvvəllərinin mürəkkəb ədəbi-mədəni, ictimai-siyasi proseslərinin qeyri-obyektiv qiymətləndirilməsinin, birtərəfli araşdırılmasının uğursuzluqları elmi fikirdə dəfələrlə təsdiqlənmişdir. Bu səbəbdən son illər tariximizə və milli-mənəvi irsimizə belə münasibət yeni elmi tədqiqatların həyata keçirilməsi ilə aradan qaldırılır. Başqa humanitar elm sahələrində olduğu kimi publisistik yaradıcılıq sahəsində də həmin dövrün ictimai-siyasi, ədəbi-mədəni həyatının obyektiv elmi mənzərəsini yaratmaq baxımından önəmli tədqiqatlar aparılır. Belə elmi araşdırmaların müəllifləri arasında əvvəlki onilliklərdə tarixi mərhələnin diqtəsinə tabe olduqları üçün XX əsrin əvvəllərindəki publisistik fikri obyektivliklə işıqlandıra bilməyən, ona ən son elmi-ictimai ehtiyacları nəzərə alaraq, yenidən qayıdan Ə.Mirəhmədov kimi tədqiqatçılar ilə yanaşı, sosiologizmdən azad yeni nəslin nümayəndələri də vardır. Onlardan Azərbaycan tarixinin, mədəniyyətinin, bədii fikrinin və publisistikasının tədqiqatçıları İ.Həbibbəyli, O.Bayramlı, V.Quliyev, Ş.Vəliyev, C.Həsənli, N.Yaqublu, A.Məmmədov, R.Mirzə, A.Rüstəmli, A.Balayev, X.İbrahimli, Q.Dünyaminqızı və başqaları geniş və dərin araşdırmalar aparmışlar. Bu araşdırmalar 1900-1920-ci illərdə Azərbaycan publisistikasında milli özünüdərk probleminin bir sıra mühüm cəhətlərini göstərmək baxımından böyük əhəmiyyətə malikdir.

Təqdim olunmuş dissertasiya işi isə XX əsrin əvvəllərinə aid publisistikamızda milli özünüdərk probleminin müasir aspektdən, xüsusi və əhatəli təhlilində yeni cəhd sayıla bilər.

---

[4] Axundov N. Azərbaycanda satira jurnalları (1906-1920-ci illər). Bakı: Azərbaycan Elmlər Akademiyasının nəşriyyatı, 1968, s.356.

[5] Hüseynov F. «Molla Nəsrəddin» və mollanəsrəddinçilər. Bakı: Yazıçı, 1986, s.3.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin məqsədi XX əsrin əvvəllərində Azərbaycan publisistlərinin milli özünüdərk probleminə dair mətbu əsərlərinin tədqiq və təhlil edilərək dəyərləndirilməsi və onların xalqın milli şüurunun formalaşmasında əhəmiyyətli rolunun əsaslandırılmasıdır. Vacib və eyni zamanda çox aktual problemin işlənməsi zamanı aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- XIX əsrin sonu - XX əsrin əvvəllərində publisistikanın xalqın milli mənlik şüurunun oyanışında, Azərbaycan maarifçiliyinin ümmətçilikdən millət dövrünə keçid prosesində rolunu aydınlaşdırmaq;
- publisistikada milli kimlik, millət, milliyyət anlayışlarının dərki ilə bağlı müxtəlif fikirlər kontekstində milli özünüdərketmənin xüsusi əhəmiyyətinə diqqəti cəlb etmək;
- ədəbi dil uğrunda mübarizənin milli özünüdərk baxımından əhəmiyyətini konkret publisistik nümunələrlə əsaslandırmaq;
- görkəmli ictimai-siyasi xadimlərin, ziyalıların milli şüurun oyanışı, milli özünüdərketmə, milli mədəniyyət və s. haqqında düşüncələrinin obyektiv təhlilinə nail olmaq;
- XX əsrin əvvəllərində fəaliyyət göstərmiş mətbuat orqanlarının milli varlığı və özünəqayıdışı şərtləndirən amillərdən biri kimi mühüm rolunu müəyyənləşdirmək;
- publisistikada milli özünüdərk probleminin işıqlandırılmasının cəmiyyət həyatına təsir gücünü göstərmək;
- «Molla Nəsrəddin» və «Füyuzat» jurnallarını milli özünüdərk problemi çərçivəsində tədqiq etmək;
- Azərbaycan Xalq Cümhuriyyətinin ziyalılarımızın milli özünüdərk uğrunda mübarizədə real qələbəsinin təcəssümü olduğunu publisistik nümunələrə əsaslanmaqla şərh etmək;
- Azərbaycan Xalq Cümhuriyyəti dövrü mətbuat orqanlarında milli özünüdərk probleminin öz aktuallığını qorumasının önəmini və bunun xalqın milli şüurunun inkişafına təsirini göstərmək.

**Tədqiqatın elmi-nəzəri və metodoloji əsasları.** Dissertasiyanın mövzusu tarixi-müqayisəli tədqiqat metoduna əsaslanmaqla təhlil edilmiş, görkəmli alimlərin, klassiklərin, tənqidçilərin fikirlərinə istinad olunmuşdur. XX əsrin əvvəlləri Azərbaycan mətbuatına, publisistikasına həsr olunmuş araşdırmalarda istifadə edilmiş müasir elmi-nəzəri prinsiplər və təhlil üsulları əsas götürülmüşdür. Dissertasiyada 1900-1920-ci illərdə publisistikada milli özünüdərk probleminin bütün aspektlərinin təhlilinə cəhd göstərilmiş, obyektivlik prinsipi gözlənilmişdir. Müəllif tədqiqat işi üzərində işləyərkən təkcə problemin öyrənilməsi və faktik materialların

toplanması ilə kifayətlənməmiş, eyni zamanda həmin faktları, əsərləri hərtərəfli və dərindən təhlil etməyə, onların mahiyyətini açmağa çalışmışdır.

**Tədqiqatın elmi yeniliyi.** İndiyə qədər 1900-1920-ci illər Azərbaycan publisistikasında milli özünüdərk probleminə ayrı-ayrı məqalələr həsr edilsə də, bəzi tədqiqat əsərlərində bu mövzuya toxunulsa da, o, xüsusi tədqiqat obyekti kimi öyrənilməmişdir. Şübhəsiz ki, bunun əsas səbəbi sovet hakimiyyətinin onilliklər ərzində milli özünüdərk, milli oyanışla bağlı mövzulara dair publisistik irsin öyrənilməsinə qadağa qoyması və ya ona qarşı etinasız, qərəzli yanaşması olmuşdur. Ölkə müstəqillik qazandıqdan sonra isə müasir dövr tədqiqatçılarının səyi hesabına bu sahədə boşluqların doldurulmasına başlanmışdır. Ancaq 70 il kölgədə qalan mövzuların qısa zamanda öyrənilməsi mümkün olmadığından, sözügedən istiqamətdə fəaliyyət bu gün də davam etdirilir. Bu baxımdan təqdim edilən dissertasiya XX əsrin əvvəllərində Azərbaycan publisistikasında milli özünüdərk problemini kompleks şəkildə araşdıran ilk tədqiqat işidir.

Araşdırma müstəqilliyimizin bərpasına qədər müxtəlif ideoloji maraqlar səbəbindən yasaqlanmış çox dəyərli mənbələrə istinadən aparılmışdır. Bu da tədqiqatın həm obyektivliyini, həm də elmi yeniliyini təmin edən cəhətlərdən biridir.

Tədqiqatda 1900-1920-ci illərin publisistik irsinə siyasi-ideoloji prizmadan yanaşma, dövrün mətbuat tarixi ilə bağlı yol verilmiş təhriflər, ziddiyyətli fikirlər mümkün qədər aradan qaldırılmışdır. Burada görkəmli ictimai xadimlərin, ziyalıların müstəmləkəçilik əleyhinə fikirləri, onların mübarizəsi və milli azadlıq ideyaları əksini tapmış, ədəbi dilin, milli mədəniyyətin, mətbuatın millətin özünüdərketməsində rolu müəyyənləşdirilmişdir.

**Tədqiqatın elmi-nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya XX əsrin əvvəllərində yaşayan Azərbaycan mütəfəkkirlərinin milli mənlik və milli özünüdərk haqqında baxışlarının obyektiv şəkildə cəmiyyətə çatdırılması baxımından elmi-nəzəri və praktik əhəmiyyət daşıyır. Əsər publisistikada milli özünüdərk probleminin sistemli və bütöv şəkildə tədqiqinə həsr olunduğundan bu sahədə gələcək tədqiqatlarda istifadə edilə bilər. Həmçinin tədqiqatda irəli sürülən müddəalar və çıxarılan elmi nəticələrdən humanitar elm sahəsində çalışan mütəxəssislərin, alimlərin, müəllim və tələbələrin faydalanması mümkündür.

Elmi araşdırmadan mətbuat tarixinin digər mərhələlərinin öyrənilməsində, eyni zamanda ali məktəblərdə oxunan mühazirələrdə, mətbuat tarixinə dair hazırlanan dərs vəsaitlərində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya Bakı Dövlət Universiteti Jurnalistika fakültəsinin Mətbuat tarixi və ideoloji iş metodları kafedrasında yerinə yetirilmişdir. Mövzu üzrə bir sıra elmi konfranslarda məruzələr edilmiş, dövri mətbuatda və ayrı-ayrı elmi məcmuələrdə tezislər və məqalələr çap olunmuşdur.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, 3 fəsil (7 yarımfəsil), nəticə və ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN MƏZMUNU

Dissertasiyanın **«Giriş»** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, problemin öyrənilmə səviyyəsi, mənbəşünaslıq məsələləri şərh edilmiş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmişdir. Həmçinin tədqiqatın elmi-nəzəri və metodoloji əsasları, elmi yeniliyi və praktik əhəmiyyəti göstərilmişdir.

Dissertasiyanın **«XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda milli şüurun formalaşmasında publisistikanın rolu»** adlı birinci fəsli iki yarımfəsildən ibarətdir. **«Azərbaycanda maarifçilik və milli şüurun oyanışı»** adlanan ilk yarımfəsildə milli maarifçilik ənənələrinin yaranması və inkişafının ölkəmizdə milli şüurun oyanmasına birbaşa təsiri göstərilmişdir.

XIX əsrin sonlarında maarifçilik Azərbaycan gerçəkliyinin qarşıya qoyduğu vəzifələrin həllinə kömək edə biləcək mədəni-ideoloji hərəkat kimi diqqəti xüsusilə cəlb edirdi. «Başqa ölkələrdə və xalqlarda olduğu kimi Azərbaycanda da maarifçilik hərəkatı milli ziyalıların yetişməsi ilə müşayiət edilmişdir»[6]. Bununla da görkəmli alim Mirzə Kazım bəyin «...Qərb öz siyasəti ilə heç zaman Asiyada maarifi dirçəldə bilməz. Ölkəni yenidən quranlar onun öz içərisində yetişməlidirlər»[7] fikri real həyatda öz təsdiqini tapmışdır.

XIX əsrin II yarısı və XX əsrin əvvəllərində ölkədə maarifçilik ideyalarının yayılması ilə Azərbaycan mədəniyyətində demokratik fikirlər güclənmiş, ictimai-fəlsəfi fikirdə yeni ideyalar qərarlaşmışdır. Həmin

---

[6]Köçərli F. M.F.Axundovun dünyagörüşü. Bakı: Elm, 1999, s.13.

[7] Hüseynov H. XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən. Bakı: Zəkioğlu, 2006, s.192.

dövrdə M.F.Axundov, H.Zərdabi, M.Ə.Sabir, C.Məmmədquluzadə, M.Hadi, A.Səhhət, Ə.Cavad, H.Cavid, Ö.F.Nemanzadə, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə, Ü.Hacıbəyov, Y.V.Çəmənzəminli kimi qabaqcıl ziyalılar Azərbaycan cəmiyyətini iqtisadi, siyasi, mədəni gerilikdən xilas edib geniş sosial tərəqqi və maarif yoluna çıxarmaq barədə düşünmüş və bu arzularını tədricən gerçəkləşdirmişdir.

Ümumiyyətlə isə Azərbaycanda maarifçiliyin və demokratik ictimai-fəlsəfi fikrin formalaşması realist nəsrimizin və dramaturgiyamızın banisi M.F.Axundovun adı ilə bağlıdır. Onun maarifçilik məramnaməsində müsəlman xalqlarının inkişafı üçün bütün tədbirlər əhatə olunmuşdur. Lakin M.F.Axundov əlifbanın dəyişdirilməsini bunların həyata keçirilməsi üçün təməl və başlanğıc sayırdı. O, ərəb əlifbasının dəyişdirilməsinə din bayrağı altında xalqların dövlətçilik ənənələrini dağıdan, mədəniyyətlərini məhv edən ərəb istilasının təzahürü saydığı mənəvi əsarətdən xilas olmaq vasitəsi kimi baxırdı. Görkəmli ziyalı ürək ağrısı ilə yazırdı: «Ərəblər bizim minillik səltənətimizi zavala uğratdılar. Şan-şöhrətimizi bada verdilər, vətənimizi xarabazara çevirdilər və bütün bunlara əlavə olaraq, bizim boynumuza elə bir əlifba da bağlamışlar ki, onun sayəsində hətta indi savad sahibi olmaq belə bizim üçün ən çətin işlərdən olmuşdur»[8]. «M.F.Axundov qətiyyətlə inanırdı ki, onun həmvətənləri həmişə kor-koranə yaşamayacaqlar, köhnə təsəvvürlərini dəyişəcəklər, qorxubilməz bir qəhrəmanlıqla sivilizasiya yolunu seçəcəklər»[9].

«Maarifdən təcrid olmaq xalqın məhvi deməkdir» - söyləyən təbiətşünas alim, publisist H.Zərdabi də xalqın milli mənlik şüurunu oyatmaq, onu xurafatdan xilas etmək üçün çalışmışdır. Mütəfəkkir vətəndaşlıq yanğısı ilə deyirdi: «Ey müsəlmanlar, heç mürvətdirmi ki, tamam dünya bizim qonşularımız belə elm təhsil etməyə səy etsinlər ki, zindəganlıq cəngində düşmənə faiq gəlsinlər, amma bizlər Allahdan buyruq, ağzıma quyruq deyib duraq? Ey müsəlmanların millət təəssübü çəkən kəsləri, bir açın gözünüzü, dünyaya tamaşa edin...»[10].

Azərbaycan ziyalıları yalnız maarifçi ideoloqlar olmaqla qalmamış, həm də özləri ölkədə maarifin reallaşmasında böyük rol oynamışdır. Onların hər addımı xalqı milli oyanışa, maarifə çağırış xarakteri daşımışdır. «1873-cü ildə H.Zərdabinin rəhbərliyi altında, Nəcəf bəy

---

[8] Axundov M.F. Seçilmiş əsərləri: 3 cilddə, III cild. Bakı: Şərq-Qərb, 2005, s.174.
[9] Hüseynov Ş. Mənəvi irsimiz və gerçəklik. Bakı: Ağaoğlu nəşr., 2004, s.194.
[10] Əkinçi (1875-1877). Tam mətni. Bakı: Azərnəşr, 1979, s.73.

Vəzirovun və Əsgər bəy Adıgözəlovun yaxından iştirakı ilə Bakı realnı gimnaziyasının otaqlarından birində böyük dramaturq M.F.Axundovun «Hacı Qara» komediyasının tamaşası göstərilmişdi. Bununla da Azərbaycan milli teatrının əsası qoyulmuşdu»[11]. H.Zərdabi ölkədə ilk Azərbaycan müəllimləri qurultayının çağırılmasının təşəbbüsçüsü olmuş, Rusiya hakim dairələrinin təzyiq və təqiblərinə baxmayaraq, xalqı maarifləndirmək, onun milli oyanışına nail olmaq məqsədi ilə 22 iyul 1875-ci il tarixində ilk milli mətbuatı – «Əkinçi»ni yaratmışdır. Qəzetin ətrafında S.Ə.Şirvani, Ə.Gorani, N.Vəzirov, M.F.Axundov kimi mütərəqqi fikirli ziyalılar birləşmişdi.

XIX əsrin sonu - XX əsrin əvvəllərində milli mətbuatla yanaşı xalqın milli oyanışına, maariflənməsinə təsir edən mühüm amillərdən biri də milli məktəblərin yaradılması olmuşdur. Xalqın savadlanmasını milli özünüdərk, oyanış, azadlıq yolunda əsas şərtlərdən hesab edən Ö.F.Nemanzadə yazırdı: «Xülasə bizi adam edəcək, bugünkü qəflətdən qurtaracaq, bar-bar bağırdığımız mədəniyyətə daxil edəcək bir vasitə, bir səbəb varsa, o da ancaq və ancaq məktəblər, mədrəsələr və mətbuatdır, bir sözlə maarifdir. Özgə hər dürlü səy və fikir boşdur, əsassızdır»[12].

Maarifçiliyin təbliğinin əsasən XIX əsrin sonu ilə əlaqələndirilməsinə baxmayaraq, 1900-1920-ci illərdə sözügedən proses heyrət doğura biləcək səviyyəyə qalxdı. Zaman keçdikcə Azərbaycan maarifçiliyi publisistikanın gücü ilə milli, ictimai-siyasi və fəlsəfi fikrin inkişafında yeni mərhələyə yüksəldi. XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan ziyalıları hər hansı bir siyasi təşkilatın görə biləcəyi ağır, çətin vəzifəni yerinə yetirərək, xalqın milli oyanışı, özünüdərki, milli azadlıq hərəkatının istiqamətləndirilməsi və siyasi mübarizə məktəbinə çevrilməsi sahəsində mühüm işlər gördülər.

**«Publisistikada milli kimlik məsələsi, millət, milliyyət faktorlarının ön plana çəkilməsi»** adlanan ikinci yarımfəsildə ümmətçilikdən millət dövrünə keçid prosesinin başlanması və inkişafı, bu istiqamətdə dövrün publisistlərinin fəaliyyəti, mətbuatda millət, milliyyət problemlərinin müzakirəsi məsələsi öz əksini tapmışdır.

XX əsrin əvvəllərində xalqımızın ictimai şüurunda dini və regional mənsubiyyət hissinin milli kimliyi açıq-aşkar üstələməsi səbəbindən Azərbaycan xalqının etno-siyasi həmrəylik səviyyəsi çox aşağı idi. Həmin tarixi dövrdə nəinki sadə insanlar, ziyalılar arasında da millə-

---

[11] Rüstəmov İ.Ə. Həsənbəy Zərdabi. Bakı: Gənclik, 1969, s. 64.
[12] Nemanzadə Ö.F. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1992, s.10.

timizin həqiqi adını, mənşəyini və kökünü dəqiq bilənləri tapmaq müşkül məsələ sayılırdı. O zaman işlək olan «müsəlman», «tatar», «Qafqaz tatarları» və s. kimi adların heç biri soy-kökümüzlə bağlı deyildi. Buna səbəb uzun illər xalqımızın «millət», «milliyyət» anlayışlarının mahiyyətini dərk etməməsi, bir millət kimi milli kimliyini müəyyənləşdirə bilməməsi olmuşdur. Doğrudur, Azərbaycanın ictimai-siyasi fikrində türk kimliyinin ilk təzahürləri hələ XIX əsrin sonlarında özünü büruzə verməyə başlamışdı. Məsələn, H.B.Zərdabinin görüşlərində, «Kəşkül»[13] və «Kaspi»[14] qəzetlərinin səhifələrində milli kimlik problemini qaldırmaq üçün edilən ilk cəhdlər, «tatar», «müsəlman» anlayışlarının milliyyət termini səviyyəsində qəbul olunmasının tənqidi xalqın milli kimliyinin müəyyənləşdirilməsi prosesinin başlanğıcı sayıla bilər. Ancaq bu cür hallara çox az təsadüf olunduğundan ötən əsrin başlanğıcında azərbaycanlıların tam əksəriyyəti özlərini türk deyil, müsəlman hesab edirdi. Bu səbəbdən dövrün ziyalıları mətbuatda yer alan fikirləri ilə ciddi cəhdlə xalqa milli kimliklərini anlatmağa çalışırdı. Türk kəlməsinin dilə gətirilməsinin mümkün olmadığı zamanda Ə.Hüseynzadə «Həyat» qəzeti vasitəsi ilə əsarətdə inləyən xalqına «biz tatar deyilik, biz türkük!»[15] – deyir, haqq səsi ilə xalqının milli oyanışına təkan verirdi. O, bu məsələyə səthi yanaşmağın, hadisələri öz axarına buraxmağın qəti əleyhinə idi və qeyd edirdi ki, «Əgər biz özümüzü «tatar» adlandıraraq tariximizi öyrənməyə başlasaq, onda milli tariximizi zülmətə qərq etmiş olarıq»[16].

«Həyat» qəzetindən sonra «Füyuzat» jurnalını çıxaran Ə.Hüseynzadə milli özünüdərk ideyalarını daha da inkişaf etdirərək, çoxlu həmfikir yetişdirdi. Milli özünüdərkin təbliğində mühüm rol oynayan «Həyat» və «Füyuzat»dan sonra bütün milli qəzet və məcmuələrin başında «türkcə çıxır» yazıldı.

XX əsrin əvvəllərində yaşayıb-yaradan klassiklərimiz başa düşürdülər ki, «xalqın milli özünüdərkini şərtləndirən ən mühüm amillərdən biri onun millət olaraq özünü düzgün adlandırması sayılır»[17]. Belə klassiklərdən Ö.F.Nemanzadə ürək yanğısı ilə yazırdı: «...Mən iddia etmək deyil, uca səslə bağırıram ki, biz özümüzü tanımırız, biz öz

---

[13] Avam gəzmək – yuxu yatmaqmı dedin? «Kəşkül» qəzeti, 1890, № 15.
[14] Şahtaxtlı M. Zaqafqaziya müsəlmanlarını necə adlandıraq? «Kaspi» qəzeti, 1891, №93.
[15] Hüseynzadə Ə. Seçilmiş əsərləri: 2 cilddə, I cild. Bakı: Çaşıoğlu, 2008, s.181.
[16] Hüseynzadə Ə. Türklər kimdir və kimlərdən ibarədir? Bakı: Mürtəcim, 1997, s.38.
[17] Бромлей. Ю.В. Очерки теории етноса. Москва, 1983, с.157.

millətimizin boş adını belə bilməyiriz»[18]. O, ziyalıların türklüyünü dərindən dərk edib, millətə təmənnasız yardım etməli, onu irəli aparmalı olduğunu qeyd edirdi.

Ö.F.Nemanzadə («Millətpərəstlik zamanıdır»[19]) Y.V.Çəmənzəminli («Biz kimik?»[20]), N.Nərimanov («Dərdlərimizin əlacı»[21]), Ə.Müznib («Qafqasiya tarixi»[22]) və digər onlarla ziyalılarımız türklərin öz milli kimlikləri ilə dini kimliklərini eyniləşdirməsinin yanlış olduğunu dəfələrlə yazsalar da, çar Rusiyasının bir əsrə yaxın müddətdə apardığı antitürk siyasətinin nəticəsi idi ki, millətin özünüdərki prosesi ləng gedirdi.

XX əsrin əvvəllərində «millət», «milliyyət» anlayışlarının dərki məsələsi istiqlal mücahidi M.Ə.Rəsulzadənin əsərlərində daha geniş təbliğ edilirdi. Onun 1914-cü ildə «Dirilik» jurnalında çap etdirdiyi «Milli dirilik» adlı silsilə məqalələri bu baxımdan mühüm əhəmiyyətə malikdir. Həmin məqalələr, əslində, Azərbaycan ictimai fikrində millət haqqında baxışların müasir elmin tələblərinə uyğun sistemləşdirilməsində ilk cəhd idi. M.Ə.Rəsulzadə yazırdı ki, «ümmət» kəlməsi sırf dini məzmun kəsb edib, etnik və mədəni mənsubiyyətindən asılı olmayaraq, bütün dünya müsəlmanlarının dini birliyi deməkdir. Millət isə «dil birliyi, adət və əxlaq birliyi, ənənati-tarixiyyə və nəhayət, etiqadi-diniyyə birliklərinin məcmusundan ibarət mütəşəkkil bir məhsuldur»[23]. «Yalnız din birliyi müasir məna ilə bir millət təşkil edə bilməz. Milliyyəti təşxis edən müştərək əlamətlərin başlıcası dil, din, adət və ədəbiyyatdır. Bu nöqteyi-nəzərdən türklər bir millətdir»[24],- deyən M.Ə.Rəsulzadə dini millətin əlamətləri sırasına daxil etsə də, onu birinci dərəcəli komponent saymırdı. Eyni zamanda o, xüsusi qeyd edirdi ki, millət milliyyət üzvlərinin əksəriyyətinin öz mədəni və milli diriliyini dərk etdiyi zaman yaranır. Başqa sözlə desək, M.Ə.Rəsulzadə millətin milliyyətdən əsas fərqini milləti təşkil edən fərdlərin milli mənlik şüuruna malik olmasında görürdü.

Azərbaycan publisistlərinin milli kimlik, millət, milliyyət məsələlərinin dərkinə kömək edən sosial-siyasi, fəlsəfi fikirləri XX əsrin əvvəllərində müstəqillik, azadlıq haqqında düşüncələrin geniş yayılmasına

---

[18] Nemanzadə Ö.F. Mən kiməm?! «Qardaş köməyi» məcmuəsi, 1917, may.
[19] Nemanzadə Ö.F. Millətpərəstlik zamanıdır. «İrşad» qəzeti, 1906, № 282.
[20] Çəmənzəminli Y.V. Biz kimik? (məqalələr). Bakı: Nurlan, 2004, s.14.
[21] Nərimanov N. Seçilmiş əsərləri. Bakı: Elm, 1973, s.377-378.
[22] Müznib Ə. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2006, s.114.
[23] Rəsulzadə M.Ə. Əsərləri (1909-1914): II cild. Bakı: Şirvannəşr, 2001, s.468.
[24] Rəsulzadə M.Ə. Əsərləri (1909-1914): II cild. Bakı: Şirvannəşr, 2001, s.468.

səbəb olmuş, əslində Azərbaycan Demokratik Cümhuriyyətinin yaranması üçün ideya zəmini hazırlamışdır.

Dissertasiyanın **«XX əsrin əvvəllərində Azərbaycan publisistikasında ədəbi dil və milli mədəniyyət məsələləri»** adlı ikinci fəsli iki yarımfəsildən ibarətdir. **«Publisistikada ədəbi dil uğrunda mübarizə milliliyin dərki vasitəsi kimi»** adlanan ilk yarımfəsildə XX əsrin əvvəllərində Azərbaycan publisistikasında ədəbi dil uğrunda mübarizənin xalqın milli özünüdərkində danılmaz faktor kimi mühüm rolu aydınlaşdırılmışdır.

XX əsrin əvvəlləri Azərbaycan ədəbi dilinin çox təzadlı, mübahisəli dövrü olmuşdur. İctimai-siyasi həyatın gərginliyi, hadisələrin tez-tez dəyişməsi ədəbi dilə də önəmli təsir göstərmişdir. Həmin dövrdə ədəbi dil xalqın məişətinə yaxınlaşmış, ictimai-siyasi proseslərə qoşulmuş, mübarizə vasitəsinə çevrilmişdir. Milli oyanış, özünüdərk ədəbi dilin xarakterinə müəyyən demokratizm, millilik gətirmişdir. Çarizmin Rusiya ərazisindəki milli dilləri tədricən sıxışdırıb aradan çıxarmaq siyasəti Azərbaycanın bütün demokratik qüvvələrinin ədəbi dil uğrunda mübarizə cəbhəsində birləşməsinə səbəb olmuşdur. Həmin dövrdə publisistika ana dili, ədəbi dil uğrunda mübarizə vasitəsi kimi öndə gedirdi.

XX əsrin əvvəllərində ədəbi dildə üç meyil, üç istiqamət özünü göstərirdi. Birinci ədəbi dili bacardıqca xalq dili ilə eyniləşdirmək meyli idi ki, bu daha çox «Molla Nəsrəddin» jurnalının və onun əməkdaşlarının əsərlərində özünü göstərirdi. «Füyuzat» və «Həyat» kimi bir çox jurnal və qəzetlər, onların əməkdaşları isə əsasən osmanlı və əski Azərbaycan dilinin ənənəsinə söykənən ortaq ümumtürk ədəbi dili yaratmağa çalışırdılar. Xalq bu ədəbi dili çətin anlayırdı. Üçüncü isə hamı tərəfindən anlaşılan və ədəbi dil normalarına əsaslanan bir dil yaratmaq meyli idi. A.Şaiq, C.Cabbarlı, S.Hüseyn, A.Səhhət kimi şair və yazıçıların yaratdığı bu ədəbi dil heç bir dialekt təsirini qəbul etmirdi.

Türk xalqları içərisində ortaq ümumtürk ədəbi dilinin zəruriliyi ideyasi ilk dəfə XIX əsrin 80-ci illərində «Dildə birlik» şüarını reallığa çevirmək üçün mübarizə aparan İ.Qaspiralı tərəfindən irəli sürülmüşdür. Onun «Tərcüman» qəzeti vasitəsi ilə həyata keçirməyə çalışdığı bu ideya sonra bütün türk dünyasına yayılmışdı. Dil birliyi ideyası Azərbaycanda Ə.Hüseynzadə və Ə.Ağaoğlunun çıxardığı «Həyat», «Füyuzat» kimi mətbuat orqanlarının səhifələrində davam etdirilmişdir. İ.Qaspiralının ədəbi dil sahəsində siyasətini Azərbaycanda ən çox müdafiə edən, əməldə tətbiqinə çalışan romantiklər olsa da, ümumtürk ədəbi dilinin yaranması zərurəti H.Zərdabi, Y.V.Çəmənzəminli, Ü.Hacıbəyov, Ö.F.Nemanzadə,

C.Məmmədquluzadə, M.Ə.Rəsulzadə, H.Cavid, A.Şaiq və digər ziyalıları da düşündürmüşdür. Onlar bu fikri dəstəkləsələr də, istər «Həyat», istərsə də «Füyuzat» qəzetinin çox çətin anlaşılan məqalələrində yad terminlərlə, ərəb, osmanlı, türk ləfzlərinə lüzumsuz yer verilməsinə etirazlarını bildirir və onlara başçılıq edən istedadlı alim və jurnalistləri xalqa yaxın yazıb yaratmağa dəvət edirdilər.

Ö.F.Nemanzadə elmi publisist dildəki sadəliyi, aydınlığı mətbuata gətirən, bu sahədə H.Zərdabinin nəcib işini davam etdirən və onu ehtirasla təbliğ edənlərdən idi. O, «Dilimiz və imlamız» məqaləsində yazırdı: «Türkcə yazmaq yüngül, asan iş deyil. Bu yazdığımda belə nə qədər ərəbcə sözlərin yerinə türkcə yazmaq istədim, bacara bilmədim. Məqsədim işə başlamaqdır. Əlbət, yavaş-yavaş öyrənəriz, sonra yüngül, dadlı olar»[25]

M.Ə.Rəsulzadə də türk dilinin yad təsirlərə məruz qalmasından narahatlıq duyur, bunun səbəblərindən birini şair və ədiblərin ərəb, fars, rus sözlərindən yerli-yersiz istifadə etmələrində görürdü. Onun qənaətinə görə, milli varlığın qorunması və milli mənlik hissinin tərbiyə edilməsi prosesində dil xüsusi diqqət mərkəzində olmalıdır: «Çünki dil bir nöqteyi-nəzərdən həmən millət deməkdir. Buna hər kəsdən ziyadə biz türklər əhəmiyyət verməliyiz»[26].

XX əsrin əvvəllərində milli ədəbi dilin təşəkkülündə xalq dilinin iştirakı, ədəbi dillə ana dilinin münasibəti ən aktual, qızğın polemikalar doğuran məsələ idi. Y.V.Çəmənzəminli yazırdı: «Dil öz kökü üstə bitər, qalxar, qol-qanad açar və bu asudəlik sayəsində də belə gözəl və geniş bir hala gələr ki, hamını heyran qoyar. Dilin kökü camaatımızın yaratdığı el ədəbiyyatındadır, gərək onlar toplansın, əzbərlənsin»[27].

Ədəbi dil normasının müəyyənləşməsində demokratik cəbhə xalq dilinə əsaslanmağı qanuni və zəruri sayır, əks qütbdən olan ziyalılar isə xalq dilinə müraciətin qəti əleyhinə gedir, ədəbi dillə ana dilinin təmasını elmi hesab etmirdilər. Ə.Hüseynzadənin «Həyat» qəzetinin dilinə etiraz edənlərə «…bizəmi qəzetənin dilini sadələşdirmək, yoxsa camaatımızamı öz ana dili olan türkcəyi öyrənmək lazımdır?»[28] sualının arxasında «Füyuzat» ədəbi məktəbi başçısının ümumtürk ədəbi dili barədə baxışları dayanırdı.

---

[25] Nemanzadə Ö.F. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1992, s. 41.
[26] M.Ə.Rəsulzadə Milli dirilik (IV). «Dirilik» jurnalı, 16 noyabr, 1914, № 5.
[27] Çəmənzəminli Y V. Əsərləri: 3 cilddə, III cild. Bakı: Elm, 1977, s.174.
[28] Hüseynzadə Ə. Qəzetəmizin dili haqqında bir neçə söz. «Həyat» qəzeti, 14 iyun, 1905, №13.

Göründüyü kimi, XX əsrin əvvəllərində ədəbi dil problemi Azərbaycanda əsas müzakirə və mübahisə predmetinə çevrilmiş, uzun müddət publisistikanın aktual mövzusu olmuşdur. Ədəbi dil uğrunda mübarizə millətin varlığının təminatçısı olan ana dilinin qorunmasında önəmli rol oynamışdır.

**«Publisistikada milli mədəniyyət məsələsi»** adlanan ikinci yarımfəsildə Azərbaycan mədəniyyətinin zənginləşməsində 1900-1920-ci illərin məhsuldar mərhələ kimi özünəməxsus yeri göstərilir.

XX əsrin əvvəllərinə təsadüf edən Azərbaycan milli-mədəni intibah hərəkatının mühüm hərəkətverici qüvvəsi olan ziyalılar bu mövzuda «Həyat», «İrşad», «Tərəqqi», «Açıq söz» qəzetləri, «Füyuzat», «Molla Nəsrəddin», «Dirilik» jurnallarında və digər nəşrlərdə çıxışlar etmiş, qızğın müzakirələr aparmış, dünya mədəniyyəti nümunələrindən və ona xas ideyalardan yararlanmaqla milli mədəniyyətin tərəqqisinə nail olmuşdular. Qərbin texnogen mədəniyyət sahələrində Şərqdən üstünlüyünün etirafından başlayan, elmi-texniki və hərbi-iqtisadi sahələrdəki böhranın səbəbləri ətrafındakı mübahisələrdən doğan, ən nəhayət dünyanın tarazlığı pozulmuş iki qütbü arasındakı müvazinəti saxlamaq uğrundakı səylərin nəticəsi kimi meydana çıxan müasirləşmə, avropalaşma hərəkatı cəmiyyəti bürümüş, ictimai həyata ciddi nüfuz etmişdir. Ancaq XX əsrin əvvəllərində Azərbaycan mədəni-ictimai mühitində Avropa mədəniyyətinə münasibətdə fərqli mövqelər, plüralist baxışlar da özünü göstərirdi. «Həyat»qəzetinin ilk nömrəsində gedən «Qəzetəmizin məsləki» adlı baş məqalədən də göründüyü kimi Ə.Hüseynzadə milli-mədəni tərəqqi proqramını yalnız «avropalaşmaq»la bitirməmiş, bu məsələdə daha vacib və daha əfsəl şərtlər kimi, milli (etnopsixoloji, mədəni-tarixi və s.) və dini (mənəvi-əxlaqi) ənənələrin dirçəldilməsini labüd bilmişdir. Onun fikrincə, «türkün irtidad edib firəngləşməsi, firənglərin, yaxud mürtədlərin tərəqqisi deməkdir; yoxsa türk və müsəlman tərəqqisi demək deyildir»[29]. Ə.Hüseynzadə milli simasını itirən bir mədəniyyətin yaşayacağına inanmır və xalqının özünəməxsus xüsusiyyətlərinin hər vəchlə qorunub saxlanmasını istəyirdi.

XX əsrin əvvəllərində yeni ruhlu, müasir düşüncəli ziyalılarımız bir tərəfdən Azərbaycan mədəniyyətinin müstəqilliyi, inkişafı, yeni tarixi mərhələdə milli adət-ənənələrin qorunması uğrunda mübarizə aparır, ona qarşı düşmən hücumlarını dəf edir, milli mədəniyyəti mənəvi aşınmadan qoruyur, digər tərəfdən isə onun dünya, xüsusilə Qərb və rus mədəniyyəti

---

[29] Hüseynzadə Ə. Qəzetəmizin məsləki. «Həyat» qəzeti, 7 iyun, 1905, №1.

ilə fəal təmasının yaranmasına səy göstərirdilər. Həmin dövrdə Qərbə münasibətdə iki əsas cərəyanın – romantizm və realizmin nümayəndələri bəzən eyni mövqedə dayanır, Avropanın elmi-mədəni tərəqqisindən nümunə götürməklə yeniləşməyin, müasirləşməyin və dünya sivilizasiyasına inteqrasiyanın önəmini qeyd edirdilər. Məsələn, realist şair M.Ə.Sabir «əcnəbi»lərin göyləri «balonlarla» dolaşdığı bir vaxtda xalqının «hələ avtomobil minməməsinə» acı-acı təəssüflənir, romantizmi təmsil edən M.Hadi elmi-mədəni inkişaf sahəsində Qərbdən nümunə götürməyə çağırırdı: «Maariflə təməddün eyləmişdir aləmi-fani, …Maariflə tərəqqi eyləmişdir qövmi-nəsrani»[30]. Buna baxmayaraq, romantiklərlə realistlərin Qərbə, Avropaya münasibətində incə bir fərq var idi. Romantiklər Qərb mədəniyyətinə qarşı hədsiz heyranlıq hissi ilə yanaşır, Şərqdə də Qərb həyat tərzini görməyi arzulayırdılar. Realistlər isə Avropanın mədəni yüksəlişinə qibtə etsələr də, onu cənnət sayıb, ideallaşdırmırdılar.

Ötən əsrin əvvəllərində müasirləşməyə münasibətdə ziyalılar üç qrupa ayrılırdılar. Onlardan mühafizəkar mövqe sahibləri Qərb mədəniyyətinin mənimsənilməsi ilə din-imanın, milli-mənəvi dəyərlərin əldən gedəcəyini düşünür, heç bir kənar mədəniyyəti qəbul etmirdilər. İfrat qərbçilər isə Avropa mədəniyyətinin istisnasız, bütün yönləri ilə qəbul olunmasını təbliğ edirdilər. Görkəmli mütəfəkkir Ə.Ağaoğlu ifrat qərbçi mövqeyi ilə fərqlənirdi. Onun fikrincə, Avropa mədəniyyəti yalnız elm və texnikası ilə deyil, bütövlükdə - ümumi əlamətləri, xüsusiyyətləri, nöqsanları və fəzilətləri ilə qələbə çalmışdır. «Bir mədəniyyət zümrəsi bölünməz bir bütündür. Parçalana bilməz. Qalibiyyət və üstünlüyü qazanan onun bütünlüyüdür»[31]. Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə kimi üçüncü mövqe tərəfdarlarının fikrincə isə, elmi-texniki tərəqqi, nailiyyətlər, mədəni yeniliklər mənimsənilməli, milli-mənəvi dəyərlərimiz isə mühafizə olunmalıdır. Problemə bu günün elmi-tənqidi prizmasından yanaşsaq, mədəni inteqrasiya və qloballaşma meyarlarını nəzərə alsaq, daha çox üçüncülərin mövqeyinin özünü təsdiqlədiyini görürük.

Ümumiyyətlə isə, bəşər mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan Azərbaycan mədəniyyətinin zənginləşməsində XX əsrin əvvəlləri məhsuldar bir mərhələ kimi özünəməxsus yer tutmuşdur. Bu dövr tarixi-ictimai şəraiti, xüsusiyyətləri ilə fərqləndiyindən istər-istəməz xalqın mədəniyyətinin inkişafında dərin izlər buraxmışdır.

---

[30] Hadi M. Seçilmiş əsərləri: 2 cilddə, I cild. Bakı: Elm, s.11.
[31] Ağaoğlu A. Üç medeniyet. İstanbul: Milli Eğitim Basımevi, 1972, s.10-11.

Dissertasiyanın üçüncü fəsli **«XX əsrin əvvəllərində mətbuat milli özünüdərk faktoru kimi»** adlanır və üç yarımfəsildən ibarətdir. **«Mətbuatın milli özünüdərkin hərəkətverici qüvvəsi kimi ictimai şüura təsiri»** adlı birinci yarımfəsildə ötən əsrin əvvəllərində Azərbaycanda baş verən ictimai-siyasi hadisələrin, mətbuatın mövzu dairəsinin genişlənməsinin, publisistikanın sənətkarlıq keyfiyyətinin yüksəlməsinin milli özünüdərk prosesinin güclənməsində rolu müəyyənləşdirilmişdir.

XX əsrin əvvəllərində Bakıda türk dilində qəzet buraxmaq müşkül işə çevrilmişdi. Bu sahədə çar hökumətinin ziyalılar qarşısında çəkdiyi sədləri aşmaq gündən-günə çətinləşirdi. Dövlət nəşrləri isə Qafqaz Mətbuat İşləri Komitəsinin xüsusi nəzarəti altında idi. Çar Rusiyası əcnəbi ölkələr, xüsusilə Osmanlı dövləti ilə əlaqələri olan azərbaycanlılara etimadsızlıq göstərirdilər. Ancaq bütün məhdudiyyətlərə, əngəllərə baxmayaraq, 1905-1907-ci illərdə Şimali Azərbaycanda mətbuat işi xeyli canlanmışdı. Tədqiqatçı alim Dilarə Seyidzadə 1905-ci ili hətta milli mətbuatın təşəkkülü ili hesab edərək yazır: «Mətbuat, milli mənlik şüurunun formalaşması, ümummilli vəzifələrin təbliği, əhalinin siyasi səviyyəsinin yüksəldilməsi üçün əzmlə mübarizə aparırdı»[32]. Həmin dövrdə ictimai-siyasi və inqilabi hadisələrin müxtəlif qütblərində dayanan hər bir sinfin məfkurəsinə uyğun olan və ona xidmət edən mətbuat orqanları fəaliyyətə başlamışdı. Onlar arasında milli-demokratik mətbuat diqqəti daha çox cəlb edirdi. Çünki açıq fikirli ziyalıları öz ətrafında birləşdirən həmin mətbu orqanlar xalqın milli mənlik şüurunun, siyasi yetkinliyinin artması, ümummilli proqramların hazırlanması üçün çalışır və buna nail olurdu. Dövrün ən görkəmli hadisələrindən biri isə fikir, düşüncə və mübarizə salnaməsi «Həyat» qəzetinin nəşri idi. XX əsrin başlanğıcında Azərbaycanda milli özünüdərk prosesinin güclənməsində, xalqın milli mənlik şüurunun inkişafında «Həyat»ın təkzibedilməz rolu olmuşdur. «Həyat» xalqımızın milli özünüdərk məsələsini ortaya atmış və öz fəalliyyətini bu məsələnin həlli istiqamətində qurmuşdu. «Əkinçi», «Kəşkül» və s. kimi bəzi qəzet və jurnallarımızda həmin ideyanın müəyyən təzahürləri əks edilsə də, məsələni geniş və əhatəli, elmi əsaslarla irəli sürmək məhz «Həyat»a qismət olmuşdu. «Həyat» Ə.Hüseynzadə, Ə.Ağayev, N.Vəzirov, M.Ə.Rəsulzadə, M.Hadi, S.M.Qənizadə, A.Şaiq kimi ziyalıları öz ətrafında birləşdirmiş və bu mühərrirlərin başlıca səyləri milli şüurun oyadılmasına, millətin özünüdərkinə, vətənə, xalqa,

---

[32]Seyidzadə D. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. Bakı: OKA nəşriyyatı, 2004, s.74.

türkçülüyə xidmətə yönəlmişdi.

Həmin dövrdə çar Rusiyasının 17 oktyabr manifestində xalqa vəd olunan «söz, mətbuat və vicdan azadlığı» ideyası yeni mətbu orqanların yaradılmasına təkan vermiş, 1905-ci il dekabrın 17-də Ə.Ağaoğlunun redaktorluğu ilə «İrşad» qəzetinin ilk sayı dərc edilmişdi. «İrşad»ı azadlıq, müstəqillik və bütövlük carçısı» adlandıran professor Ş.Vəliyev yazır: «XX əsrin əvvəllərində xalqı azadlıq və müstəqilliyə, dövləti suverenliyə, vətəni bütövlüyə qovuşdurmaq yolunda «İrşad» məhz adına layiq işlər görür, yolgöstərən rolunu oynayırdı»[33]. «İrşad»ın göstərdiyi yol ümumxalq yolu olduğundan istər «molanəsrəddin»çi mətbu orqanlar, istərsə də «füyuzat»çı romantik-fəlsəfi nəşrlər onun prinsiplərini daha geniş miqyasda davam etdirmişdir.

XX əsrin əvvəllərində - ziddiyyətli, gərgin, qarışıq fikir və ideyaların toqquşduğu bir dövrdə xalqı maarifləndirmək, mədəni inkişafına nail olmaq, onda ümummilli ideyaları formalaşdırmaq əsas meyarlardan birinə çevrilmişdi. Ziyalılar cəmiyyəti dəyişmək məsələsində qanlı-qadalı inqi-lablardan çox təkamül yoluna üstünlük verirdilər. «Yeni Füyuzat» (1910-1911), «Şəlalə» (1913-1914) jurnalları da bu fikri, qayəni təbliğ edirdi. M.Ə.Rəsulzadənin nəşrinə başladığı «Açıq söz» və S.E.İbrahimovun «İqbal» qəzetləri də milli birliyi yaratmaqla, xalqı yeniliyə, maarifə səsləyirdi.

Cəmiyyətdəki problemlərin həllinə satiranın gücü ilə nail olmağa çalışan mətbu orqan isə «Molla Nəsrəddin» (1906-1931) satirik məcmuəsi idi. Onun da təsiri ilə «Bəhlul» (1907), «Zənbur» (1909-1910), «Mirat» (1910), «Arı» (1910-1911), «Kəlniyyət» (1912-1913), «Lək-lək» (1914), «Tuti» (1914-1917), «Məzəli» (1914-1915) və s. satirik jurnallar nəşrə başlamışdı. Bu jurnallarda ölkənin daxilində və xaricində baş verən siyasi, ictimai və mədəni hadisələrə, cəmiyyətdəki nöqsanlara kifayət qədər geniş yer ayrılır, münasibət bildirilirdi.

Bütün bunlar göstərir ki, Azərbaycan mətbuatı, publisistikası XX əsrin əvvəllərində ən yüksək inkişaf dövrünü yaşamış, heyrət doğuracaq səviyyəyə çatmışdır.

**«Milli özünüdərk prosesinin güclənməsində «Molla Nəsrəddin» və «Füyuzat» ədəbi məktəblərinin rolu»** adlanan ikinci yarımfəsildə «Molla Nəsrəddin» və «Füyuzat» jurnallarının xalqı yüksək ideallar uğrunda mübarizəyə səsləməsi, hər iki mətbu orqanın milli özünüdərk prosesinin əsas hərəkətverici qüvvələrindən olması, onları

[33] Vəliyev Ş. Azadlıq, müstəqillik və bütövlük carçısı. «Xalq» qəzeti, 27 dekabr, 2005.

Azərbaycan xalqının milli oyanışına nail olmaq amalının birləşdirməsi göstərilmişdir.

Ötən bir əsrdən artıq dövr ərzində satirik-demokratik mətbuatın inkişafı sahəsində «Molla Nəsrəddin»dən, romantik istiqamətdə isə «Füyuzat»dan uca zirvə fəth edilməmişdir. XX əsrin əvvəllərində «Füyuzat» ədəbi məktəbinin yaradıcısı Ə.Hüseynzadə və «Molla Nəsrəddin» ədəbi məktəbinin banisi C.Məmmədquluzadə məqbul bildikləri yolla xalqa xidmət etmiş, onların millətinə fayda vermək məqsədində məzmun eyni, forma isə müxtəlif olmuşdur. Həm Ə.Hüseynzadənin, həm də C.Məmmədquluzadənin nəşr etdirdiyi mətbuat orqanları xalqın milli özünüdərki istiqamətində çox böyük işlər görmüşdür. Sadəcə, realistlər bu yolda tənqid və ifşa, romantiklər isə təqdir və tərənnüm, milləti öz gözündə yüksəltmə yolunu seçmişdilər.

«XX əsrin əvvəllərində müstəqil ideya-estetik konsepsiya formalaşdırmağa müvəffəq olan «Molla Nəsrəddin» və «Füyuzat» jurnallarının adları ilə bağlı satirik və romantik ədəbiyyat məktəbləri milli mədəniyyət tariximizə bir sıra parlaq nümunələr bəxş edə bilmişdir. Ancaq təəssüf ki, tarixin və taleyin acı «məzhəkələri» üzündən sovet totalitar rejimi dövründə bu iki jurnalın yaratdığı ədəbi məktəblər və onların üzvləri - mollanəsrəddinçilərlə füyuzatçılar bir-birinə qarşı qoyulmuş, yanlış olaraq barışmaz siyasi qüvvələr kimi qiymətləndirilmişlər»[34]. Halbuki tədqiqatlar göstərir ki, bu iki mütərəqqi mətbuat arasında barışmaz konflikt olmamışdır. Xalqın gələcəyinə, elmə, maarifə münasibət, cəhalət və nadanlığa qarşı mübarizə baxımından «Molla Nəsrəddin»lə «Füyuzat» eyni mövqedən çıxış etmişdir. Qəflət yuxusunda olan xalqın gözünü açmağa xidmət edən «Molla Nəsrəddin»i doğuran 1905-ci il inqilabi hadisələri bu jurnalda ən aktual və müasir mövzulardan idi. Mollanəsrəddinçilər inqilabi hərəkata, xalqın azadlıq mübarizəsinə nəinki rəğbət bəsləyirdi, hətta öz əsərləri ilə onlara bilavasitə kömək edirdilər. Azərbaycan məişətindəki gerilik, savadsızlıq, ailə münasibətlərindəki müxtəlif tipli qüsurlar, uşaq tərbiyəsinin naqis cəhətləri, ətalət və tənbəllik, oğurluq, dini təəssübkeşlik və s. mənfi hallar da «Molla Nəsrəddin»in əsas tənqid hədəflərindən idi. Bütün bu qüsurları jurnal qabaqcıl mədəniyyətə malik xalqların həyat tərzi ilə müqayisədə təsvir edir, aradan qaldırmağa çalışırdı. Təkcə Azərbaycan xalqının deyil, müsəlman aləminin min-min dərdləri jurnalı dərindən düşündürürdü. Ailə və məişətdə, maarif və mədəniyyət sahəsindəki

---

[34] Talıbzadə K. «Füyuzat»dan Azərbaycan Xalq Cümhuriyyətinə doğru (ön söz). Vəliyev Ş. Füyuzat ədəbi məktəbi. Ankara: Ejdat, 2000, s.3.

qüsurların əsasını jurnal, haqlı olaraq, mövhumatda, şəriətin buxovlarında görürdü. Təsadüfi deyil ki, C.Məmmədquluzadə xurafatı xalqın azadlıq arzularını boğub məhv edən ictimai bəla, ruhaniləri isə despot padşahlardan da dəhşətli düşmən hesab edirdi.

XX əsrin əvvəllərində xalqın milli şüurunun oyanışı istiqamətində mollanəsrəddinçilərlə yanaşı füyuzatçıların da əməyi yüksək qiymətləndirilməlidir. Çünki füyuzatçılar sivil normalara uyğun, demokratik prinsiplərə əsaslanan hüquqi dövlət istəyini açıq bəyan edir, «hürr və demokrat» Azərbaycanın ümumtürk kontekstində, habelə müstəqil dünya dövlətləri sırasında yerini müəyyənləşdirməyə çalışırdılar... Onlar Turan mədəni-mənəvi birliyinin əsası kimi ortaq dil, kültür və tarixin öyrənilməsini də təxirəsalınmaz vəzifə sayırdılar.

«Molla Nəsrəddin» və «Füyuzat» jurnalları xalqımızı yüksək ideal-lar uğrunda mübarizəyə səsləmiş, hər iki mətbu orqan milli oyanış və özü-nüdərk prosesinin aparıcı qüvvəsi olmuş, bir sıra prinsipial məsələlərdə fərqli mövqelər tutsalar da, milli tərəqqiyə xidmətdə, Azərbaycan xalqının milli oyanışında eyni nöqtədə birləşmişdir. Hər iki istiqamət milli özünüdərki, millətin özünü tanımasını vacib saymış, bu prosesin önündə getmişdir.

Üçüncü fəslin **«Azərbaycan Xalq Cümhuriyyəti dövrü mətbuat orqanlarında milli özünüdərk problemi»** adlanan sonuncu yarımfəslində 1918-1920-ci illərdə publisistikanın əvəzedilməz imkanları çərçivəsində xalqın milli özünüdərki istiqamətində görülən işlər öz əksini tapmışdır. Cəmi iyirmi üç ay yaşamış müstəqil dövlətin siyasi, ictimai, mədəni, əxlaqi, bir sözlə, sosial-iqtisadi, mənəvi həyat tərzi məhz bu illərin dövri mətbuatında öz əksini tapmış, canlı salnamə, tarixi yadigar kimi bizə gəlib çatmışdır. Həmin illərdə ölkəmizdə ideoloji mübarizənin bütün ağırlığı dövri mətbuatın kəsərli silahı olan publisistikanın üzərinə düşmüşdür. Çarizmin əsarətindən yenicə qurtulmuş Şimali Azərbaycanın müstəqilliyinin qorunub saxlanması, milli ordunun yaranması, ölkədə demokratik parlament seçkiləri və islahatların keçirilməsi, bolşevik və Denikin təhlükəsinin dəf edilməsi, Qarabağda erməni millətçilərinin törətdiyi müharibə yanğınının söndürülməsi, ölkə daxilindəki təfriqəçilik, Bakı nefti uğrunda xarici imperialistlərin didişməsi və s. ideya-mövzu cəhətdən rəngarəng və zəngin publisistikanın toxunduğu əsas məsələlər idi. Eyni zamanda, milli publisistikanın əsasında xalqın gələcəyi ilə bağlı böyük siyasi-ictimai konsepsiya dayanırdı. Bu konsepsiya XX əsrin əvvəllərində Azərbaycanda intişar tapmış «türkləşmək, islamlaşmaq, müasirləşmək» idealında təcəssüm olunurdu.

Azərbaycan mətbuatı 1918-1920-ci illərdə öz tarixinin yüksək inkişaf mərhələsini yaşamış dövrün mətbuatı həm keyfiyyət, həm də kəmiyyət baxımından, milli mədəniyyətin mühüm tərkib hissəsinə çevrilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövrünə aid mətbu orqanlar daşıdıqları ideyalar kimi məzmunca da bir-birindən fərqlənmiş və onlar aşağıdakı kimi təsnifatlandırılmışdır: Azərbaycan Demokratik Respublikasının ideyalarını təbliğ edən milli mətbuat; milli hokumətə müxalifətdə olan bolşevik ideyalı mətbuat; Azərbaycan bolşevik mətbuatı ilə müxalifətdə olan mətbuat; Azərbaycanı ərazi cəhətdən parçalayıb Ermənistana birləşdirmək uğrunda mübarizə aparan mətbuat; özünü bitərəf adlandıran, heç bir siyasi partiyaya mənsub olmayan informatik qəzet və jurnallar[35]. Lakin onların içərisində daha real həyat qüvvəsinə və geniş oxucu auditoriyasına malik olan Azərbaycan Xalq Cümhuriyyətinin ideyalarını dəstəkləyən və təbliğ edən - «İstiqlal», «Azərbaycan», «Övraqi-nəfisə», «Qurtuluş», «Mədəniyyət», «Gənclər yurdu», «Şeypur», «Zənbur» və s. qəzet və jurnallar olmuşdur.

1918-1920-ci illərdə xalqı və onun ideallarını təmsil edən publisistikanın ön sırasında milli mətbuatın mütərəqqi ənənələrini və müasir nailiyyətlərini özündə birləşdirən «Azərbaycan» qəzeti qərar tutmuşdur. «Azərbaycan» qəzetinin milli özünüdərk siyasətinin başında isə qəzetin redaktorlarından olmuş Ü.Hacıbəyov dayanırdı. Görkəmli ədibi həyatın, demək olar ki, bütün ictimai-siyasi, mənəvi-əxlaqi məsələləri düşündürmüş, onun «Azərbaycan» qəzetindəki ideya, mövzu, forma və janr cəhətdən rəngarəng publisistik yazılarında milli birliyə, həmrəyliyə çağırış, daxili siyasi pərakəndəliyin tənqidi geniş yer tutmuşdur. Ü.Hacıbəyov Azərbaycanın milli müstəqilliyini qəbul etməyən, onun yeni qurulan dövlətinə qəsd niyyəti güdən qüvvələrə, müxalif partiyalara qarşı yazdığı məqalələrlə Azərbaycanın istiqlalını hədələyənlərin təkcə erməni daşnakları və rus şovinistlərindən ibarət olmadığını xalqa başa salmağa çalışmışdır: «Gözlər var ki, dünənə qədər əsir və qul olan milləti bu gün azad və sərbəst görmək istəmirlər. Qulaqlar var ki, lal edilmiş bir millətin dilinin bu gün açılıb da söz söyləməsini eşitmək istəmirlər. Qəlblər var ki, bir əsrdən artıq məhkum qalan bir millətin bu gün müstəqil və azad olmasını qəbul etmək istəmirlər»[36].

---

[35] Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. I cild. Bakı: 2004, s.67

[36] Hacıbəyov Ü. İçimizdəki denikinlər. «Azərbaycan» qəzeti, 10 iyun, 1919, № 200

Azərbaycanın istiqlalına, milli dövlətə, bayrağa və gerbə, türkçülük idealına, ümumbəşəri dəyərlərə həsr olunmuş ən yaxşı ədəbi-bədii, elmi-publisistik, fəlsəfi-tarixi əsərlər M.Ə.Rəsulzadə, Ə.Ağaoğlu, Ə.Hüseynzadə, C.Hacıbəyli, Y.V.Çəmənzəminli, C.Cabbarlı, M.Hadi, Ə.Cavad, M.B.Məhəmmədzadə kimi ziyalıların Cümhuriyyət dövrü mətbuatında yer alan yazıları olmuşdur. Onlar publisistik əsərləri vasitəsilə Avropada və Rusiyada vüsət tapan xristian birliyi hərəkatı müqabilində «türkləşmək, islamlaşmaq, müasirləşmək» ideyasının qələbəsinə çalışmışdır.

1918 – 1920-ci illərdə Azərbaycan milli mətbuatı müxtəlif fikir və ideyaların döyüş meydanı, təbliğat vasitəsi olmaqla, həm də xalqın azadlığı, müstəqilliyi, demokratik dövlət quruluşu uğrunda apardığı mübarizələrdə tribuna, tarixi salnamə və dərs vəsaiti olmuşdur, doğru yol seçimində, həqiqət axtarışında cəmiyyətin güvənc yerinə çevrilmişdir. AXC dövrü mətbuatı o dövrə qədərki Azərbaycan milli mətbuatının demokratik ənənələrinin yekun mərhələsi idi. Onu sistemli şəkildə öyrənmək, aparılan tədqiqatları saf-çürük etməklə Azərbaycan xalqının milli özünüdərkinin, ictimai, siyasi və mədəni inkişafının hansı mərhələlərdən keçdiyini aydınlaşdırmaq mümkündür.

Dissertasiyanın **«Nəticə»** hissəsində tədqiqatın əsas müddəaları ümumiləşdirilmiş, aparılan araşdırmalara yekun vurulmuş, əldə olunmuş nəticələr və gələcək perspektivlər müəyyənləşmişdir.

**Dissertasiya mövzusuna dair müəllifin aşağıdakı məqalələri çap olunmuşdur:**


1. «Həyat» qəzeti milli özünüdərkin carçısı kimi / AR Təhsil Nazirliyi. Doktorantların və gənc tədqiqatçıların XIV Respublika elmi konfransının materialları. Bakı, 2010, s. 227-228
2. 1900-1920-ci illər Azərbaycan publisistikasında millət anlayışı // Dil və Ədəbiyyat. Bakı, 2011, №1(77), s.299-302
3. XX əsrin əvvəllərində Azərbaycan mətbuat polemikasında millilik, bəşərilik // Filologiya məsələləri, Bakı, 2011, №9, s.326-334
4. Azərbaycan publisistikasında milli mədəniyyət məsələləri (1900-1920-ci illər) // Bakı Universitetinin Xəbərləri. Bakı, 2011, №4, s. 247-255
5. Проблемы национального просветительства в Азербайджанской публицистике начала XX века / Языковая картина мира и творческаяличностьв условиях трансграничья: материалы международной научно-практической конференции. Чита, 24-25 мая 2011 г., с. 163-165

6. Проблемы национального самосознания в творчестве Али бека Гусейнзаде // Вестник Казахского национального университета им. Аль-Фараби. Серия востоковедения. Алматы, 2011, №2 (55), с.94-97

7. Azərbaycan publisistikası milli özünüdərk prosesində (1900-1920-ci illər) // Azərbaycan jurnalistikası qloballaşma dövründə : qaynaqlar və perspektivə baxış / Professor Nəsir İmanquliyevin 100 illik yubileyinə həsr olunmuş Respublika elmi-praktik konfransının materialları. Bakı, 2011, s. 388-400

8. «Kaspi» qəzetində milli özünüdərk problemləri // Üç əsrin qəzeti. Bakı, Qanun, 2011, s. 452-459

9. Mətbuat milli özünüdərkin hərəkətverici qüvvəsi kimi // Filologiya məsələləri. Bakı, 2012, №8, s.295-300

10. XX əsrin əvvəllərində Azərbaycan publisistikasında ədəbi dil uğrunda mübarizə milliliyin dərki vasitəsi kimi // ADU-nun Elmi xəbərləri. Cild 2. 2017, №1, s.80-84

**Ульвина Фазиль гызы Фарзалиева**

# ПРОБЛЕМЫ НАЦИОНАЛЬНОГО САМОПОЗНАНИЯ В ПУБЛИЦИСТИКЕ АЗЕРБАЙДЖАНА (1900-1920-е годы)

## РЕЗЮМЕ

Диссертационная работа на тему «Проблемы национального самопознания в публицистике Азербайджана» (1900-1920-е гг.) состоит из вводной части, трёх глав (7 подразделов), заключительной части и списка используемой литературы.

Во вводной части широко излагается актуальность темы, ее цели и задачи, научная новизна.

Первая глава называется «Роль публицистики в формировании национального сознания в Азербайджане в конце XIX – начале XX вв.». В первом подразделе «Пробуждение национального сознания и просвещение в Азербайджане» историческими фактами доказывается непосредственное влияние развития национальных просветительских традиций в стране на пробуждение национального сознания. В подразделе «Выдвижение на передний план в публицистике вопросов национальной идентичности, нации, национальных факторов» отображены начало и развитие процесса перехода от религиозной принадлежности к периоду нации, деятельность публицистов в этом направлении, обсуждение вопросов национальной идентичности, нации, национальных проблем в органах печати того периода.

Вторая глава именуется «Вопросы литературного языка и национальной культуры в публицистике Азербайджана в начале XX века». В первом подразделе этой главы – «Борьба за литературный азербайджанский язык как способ понимания национальной принадлежности» разъясняется важная роль борьбы за литературный язык в публицистике Азербайджана этого периода в национальном самопознании народа. Во втором подразделе под названием «Вопросы национальной культуры в публицистике» говорится о том, что период 1900-1920-х годов является продуктивным этапом и занимает специфическое место в обогащении азербайджанской культуры, как неотъемлемой части культуры человечества.

Третья глава называется «Печать в начале XX века, как фактор национального самопознания». В ее первом подразделе «Влияние печати, как движущей силы национального самопознания, на общественное сознание» разъясняется роль общественно-политических событий, происходивших в Азербайджане, расширения круга публицистической тематики, повышения качества творческого профессионализма в укреплении процесса национального самопознания. В подразделе «Роль литературных школ «Молла Насреддин» и «Фиюзат» в усилении процесса национального самопознания» фактами обосновывается, что эти печатные органы, призывавшие народ к борьбе за высокие идеалы, являлись ведущей движущей силой процесса национального самопознания. В последнем подразделе III главы под названием «Проблема национального самопознания в органах печати периода Азербайджанской Народной Республики» описывается напряжённая, сложная общественно-политической жизнь Азербайджана в 1918-1920 гг., проделанная работа в рамках незаменимых возможностей публицистики и печати для отображения исторической картины и в направлении формирования национального самосознания.

В заключительной части диссертации подведён итог проведённых исследований, обобщены выдвигаемые основные научные положения.

**Farzaliyeva Ulvina Fazil**

## THE PROBLEMS OF NATIONAL IDENTITY IN AZERBAIJAN PUBLICISM (1900-1920s years)

## SUMMARY

The dissertation «The Problems of national identity in Azerbaijan publicism» (1900-1920s years) consists of an introduction, three chapters (7 subtitles), a conclusion and a list of used literature.

The introduction gives extensive description of the dissertation-theme importance, aim and objectives, as well as its scientific importance.

The first chapter goes under the title «The role of publicism in the formation of national consciousness in Azerbaijan during the end of XIX century and beginning of XX century».

The first subsection called «Enlightenment and the awakening of the national consciousness in Azerbaijan» reflects the direct influence of development of the national enlightenment traditions to the awakening of the national consciousness in Azerbaijan substantiated with historical facts.

The subsection called «The question of national identity, fore fronting the factors of nation, nationality into the publicism» reflects the beginning and the development of the process of transition from the period of «Followers» to the period of «nation», the activity of the publicists of this period in this direction, discussion of national identity, nation and nationality problems in the mass media.

The subsection «The struggle for literary language in publisizm as a means of national consciousness" being the first part of thesecond chapter called «Literary language and the problems of national culture in Azerbaijan publicism in the beginnings of XX century» highlights the struggle for literary languageas an undeniable factor and its important role in Azerbaijan publicism.

The specific place of 1900-1920s in the enrichment of the culture of Azerbaijan being integral part of the human culture as a productive stage was described in the second subsection called «National culture problem in Azerbaijan publicism».

The III chapter is goes under the title «Media as a factor of national identity at the beginning of XX century». The main and first subsection «The influence of media to the social consciousness as motive

forces of national identity» describes the role of social and political events occurred in Azerbaijan,expansion of subject scope of the publicity, increase the quality of mastery in the strengthening of national identity process.

The subsection «The role of literary schools «Molla Nasraddin» and «Fuyuzat» in ganing strength in the process of national identity» deals with thecalling the people to struggle for the high ideals by «Molla Nasraddin» and «Fuyuzat» journals by giving both journnals «Molla Nasraddin» and «Fuyuzat» as leading, motive forces.

The last subtitle of the III chapter called «The national identity problem in the media outlets during Azerbaijan Democratic Republic» highlights works done in the direction of national identity in the framework of irreplaceable capabilities of the publicity, press to reflect its historical view in the intensive, complex political and social life of Azerbaijan during 1918-1920 years.

Conclusion gives the result of investigation carried out and the summary of  the main scientific theses.

AMEA-nın mətbəəsində çap olunub

Tiraj-100

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**УЛЬВИНА ФАЗИЛЬ гызы ФАРЗАЛИЕВА**

# ПРОБЛЕМЫ НАЦИОНАЛЬНОГО САМОПОЗНАНИЯ В ПУБЛИЦИСТИКЕ АЗЕРБАЙДЖАНА (1900-1920-е годы)

**5720.01 – Журналистика**

**АВТОРЕФЕРАТ**

Диссертации на соискание ученой степени
доктора философии по филологии

**БАКУ-2017**